# Yaşayış yeri haqqında arayış

"Elektron Hökumət" portalının təqdim etdiyi "Yaşayış yeri haqqında arayış" elektron xidmətindən istifadə edərək vətəndaşlar yaşayış yerləri haqqında arayışı elektron formada əldə edə bilərlər. Bunun üçün istifadəçi www.e-gov.az portalında "Elektron Arayışlar" bölməsində yerləşən " Yaşayış yeri haqqında arayış" elektron xidmətinə daxil olmalıdır. (Şək. 1)




Şəkil 1

Xidmətə daxil olunan zaman sistem istifadəçidən portaldan autentifikasiyadan keçmək tələb edəcək. Bu zaman istifadəçiyə 5 autentifikasiya növü təqdim olunur. (Şək. 2)




Şəkil 2

Növbəti mərhələdə artıq sistem öz istifadəçisini indetifikasiya etdiyi üçün birbaşa olaraq elektron arayış formasını yaradaraq istifadəçiyə təqdim edir. Elektron arayışda sənədin nömrəsi, verilmə tarixi, vətəndaşın tam adı, doğum tarixi, qeydiyyatda olduğu ünvan öz əksini tapır. İstifadəçi "Çap" düyməsini seçməklə elektron arayışı kağız formada çap edə biləcək. (Şək. 3)


Geri

Çap

Elektron Hökumət Portalı

Sənəd Elektron hökümət portalı tərəfindən hazırlanıb

www.e-gov.az

157

Sənədin nömrəsi:

Verilmə tarixi : 16.04.2015

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi

VƏTƏNDAŞIN QEYDİYYATDA OLDUĞU ÜNVAN BARƏDƏ ELEKTRON ARAYIŞ

"Giriş-çıxış və qeydiyyat" İdarələrarası avtomatlaşdırılmış məlumat axtarış sisteminə əsasən

vətəndaş

05.03.1980 AZƏRBAYCAN,BAKI ş.

*Soyadı,adı,ata adı,doğulduğu tarix,doğulduğu yer*

bu ünvanda qeydiyyatdadır

BAKI ş.,

* Ştrix kodlar arayışın sistem nomrəsini əks etdirir

*Elektron sənədin doğruluğunu www.e-gov.az portalında yoxlaya bilərsiniz.*

Şəkil 3

Elektron arayışın aşağısında əks olunan ştrix kodlar arayışın sistem nömrəsini əks etdirir və bu ştrix kodlardan istifadə edərək arayış təqdim olunacaq təşkilat sənədin həqiqiliyini yoxlamaq imkanı əldə etmiş olacaq. Həmçinin istifadəçi portalin təqdim etdiyi " Portal üzərindən verilmiş arayışların yoxlanılması" elektron xidmətinə daxil olaraq arayışın ştrix kodunu tələb olunan sahəyə daxil edib öz elektron arayışına yenidən baxmaq imkanını əldə etmiş olur.